# Yeni təhsil strategiyasından irəli gələn vəzifələr

**Azərbaycan hazırda təhsildə islahatlar dövrünü yaşayır. 1999-cu ildən başlayan bu islahatlar respublikamızın təhsil tarixində müstəqillik illərinin quruculuq dövrünü əhatə edir. Azərbaycan təhsilinin demokratik və humanist prinsiplər əsasında qurulması, humanitar mahiyyət kəsb etməklə məhz şəxsiyyətin formalaşdırılması amilinə çevrilməsi bu illərin nailiyyəti kimi dəyərləndirilir. Təhsilin nəticəyönümlü xarakterinin yaranması onun inkişafyönümlülüyünü təmin etmək baxımından xüsusi əhəmiyyət daşıyır. Müəllimlərin yeni pedaqoji texnologiyalara yiyələnməsi, onları özlərinin fəaliyyət mexanizminə çevirmələri də məhz bu islahatlar dövründə qazanılmış nailiyyətlər kimi qəbul edilir.**

"2011-2021-ci illərdə Azərbaycan təhsilinin milli strategiyası"nın hazırlanıb həyata keçirilməsi, milli təhsilin qabaqcıl dövlətlərin təhsil sistemlərinə inteqrasiyasına əlverişli şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda öz əksini tapan vəzifələr mühüm proqram kimi qarşıya qoyulub.

Müasir məktəb zamanın tələbinə uyğun olaraq dəyişir. Artıq İnkişaf Konsepsiyasına uyğun olaraq şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən, "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunmasına başlanılmışdır. Heç şübhəsiz, bu uğurlu başlanğıcın davam etdirilməsində ölkəmizin böyük müəllimlər ordusunun fəal iştirakı, yaradıcılıq töhfələri daha çox əhəmiyyət daşıyır. Çünki müasir zamanda aktual hesab edilən təhsil mexanizmlərinin əsasında sistemin formalaşdırılması, bu prosesdə sosial sifarişlərin nəzərə alınması vacib tələblər hesab edilir.

Bütün bunlar ulu öndərimiz Heydər Əliyevin təhsil fəlsəfəsinin, onun bütün sahələrdə başladığı yolu uğurla və müdrikliklə davam etdirən Prezidentimiz İlham Əliyev cənablarının səyi və yorulmaz fəaliyyəti sayəsində reallaşmışdır. Və biz təhsil işçiləri həmişə H.Əliyevin təhsillə bağlı arzularının gerçəkləşməsində xüsusi fəallıq göstərən, ölkənin birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili, Mehriban Əliyevanın rolunu xüsusi minnətdarlıqla qeyd edirik.

Məlumat üçün qeyd edim ki, 2014-2015-ci tədris ilində rayonumuzda 75 ümumtəhsil məktəbi (59 tam orta, 11 ümumi orta, 5 ibtidai) fəaliyyət göstərib.

Ümumtəhsil məktəblərində təhsil alan 21112 nəfər şagirdin təlim-tərbiyəsi ilə 3137 nəfər müəllim məşğul olur. Son 5 ildə rayonda 11 məktəb və təhsil şöbəsinin yeni inzibati binası tikilib istifadəyə verilmiş, 16 məktəbdə əsaslı təmir, 12 məktəbdə cari təmir işləri aparılmışdır. Ötən dərs ilində rayon təhsil şöbəsinin inzibati və şəhər 7 saylı ümumi orta məktəbin 360 şagird yerlik binası istifadəyə verilmiş, şəhər 5 nömrəli məktəbdə əsaslı təmir işləri tamamlanmış, 2 nömrəli və 6 nömrəli tam orta məktəblərin binasında əsaslı təmir işləri davam etdirilib. Türkmən kənd tam orta məktəbi üçün 260 şagird yerlik məktəb binası bu qəbildəndir. Şəhər 4 saylı, Mehdili, Xanağalı, Qaradırnaq, Kətəlparaq kənd tam orta məktəblərində əsaslı, Lənbəran, Bəcirəvan, Mollalı, Samux, Mehdixanlı, Muğanlı kənd tam orta məktəblərində cari təmir işləri, yerdə qalan məktəblərdə də daxili imkanlar hesabına təmir işləri aparılmış, səliqə-sahman yaradılmış, yaşıllıqlar salınmış və məktəblər yeni dərs ilinə tam hazırlanmışdır.

Dərslik özünün funksiyasına görə tədris resursları içərisində xüsusi yer tutur. Ümumtəhsil məktəbi şagirdlərinin inkişafının istiqamətləndirilməsi və təmin olunmasında onun inkişafına daha çox istinad edilir. 2015-2016-cı dərs ilində ölkənin ümumtəhsil məktəblərinin IV, VI və VIII sinifləri üçün dövlət vəsaiti hesabına 141 adda 4 milyondan çox dərslik və müəllim üçün vəsait çap olunub. Həmin dərsliklərdən 64956 nüsxə rayonumuzun məktəblərinə paylanıb.

Rayon təhsil şöbəsi ən yaxşı müəllimlərin aşkar edilib onların təcrübəsinin öyrənilib yayılmasını, müəllimlərin bilik və bacarıqlarının daim artırılmasını diqqət mərkəzində saxlamışdır. Dərs ili ərzində məktəblərdə ayrı-ayrı fənlərdən 490 saat dərs dinlənilmiş, rayon üzrə isə 180-dən çox açıq dərs keçirilmişdir.

Yeni fənn kurikulumlarına başlayandan keçən müddət ərzində qarşıya çıxan problemlərin həllində müəllimlərə əməli köməklik göstərmək və bu sahədə maarifləndirmə tədbirlərini gücləndirmək məqsədilə "Kurikulum tədris kursları" təşkil edilmiş və akademik Zərifə Əliyeva adına texniki təmayüllü məktəb-lisey, şəhər 8 nömrəli tam orta məktəb, Xanqaraqoyunlu, Xəsili kənd tam orta məktəbləri texniki təlim vasitələri ilə təmin edilmişdir. Kurikulum mərkəzlərində fənn kurikulumlarının tətbiqi ilə əlaqədar seminarlar, "dəyirmi masa"lar, açıq dərslər təşkil edilmişdir.

"Kiçik Akademiya"ların bir çox bölməsi üzrə (fizika, riyaziyyat-informatika, tarix və coğrafiya, kimya-biologiya və Azərbaycan dili və ədəbiyyatı) fəaliyyəti nəticəsində istedadlı şagirdlərin siyahısı dəqiqləşdirilmiş, onların müvafiq bölmələrə cəlb olunması, referatlar verilməsi təşkil edilmiş və elmi rəhbərlər müəyyənləşdirilmişdir.

Müasir pedaqoji dünyagörüşü, peşəkar və yaradıcı keyfiyyətləri ilə fərqlənən gənc müəllimlərin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmış, onların əməyinin qiymətləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, yaşı 35-dək olan istedadlı gənc müəllimləri müəyyənləşdirərək "Məlumat bankı" yaradılmışdır. İstedadlı müəllimlərin birliyi və bu birlik daxilində fənlər üzrə bölmələr təşkil edilmiş, ümumtəhsil məktəblərində çalışan yaradıcı müəllim potensialını üzə çıxarmaq, novatorluğu və innovasiyalara meyilliyi ilə fərqlənən müəllimlərə pedaqoji ustalıqlarını nümayiş etdirmək üçün şərait yaradılmışdır.

2014-2015-ci tədris ilində XI sinfi bitirən 1464 nəfərdən 1456 nəfər məzun attestat almışdır ki, onlardan 2 nəfəri qızıl medala layiq görülüb. 1456 nəfər məzundan 663 nəfəri, yəni 45 faizi ali məktəblərə sənəd vermişdir.

Əgər 2014-cü ildə ali məktəbə qəbul üçün sənəd verənlərin 45,6%-i, yəni 344 nəfər ali məktəbə qəbul olmuşdursa, 2015-ci ildə bu rəqəm 58 faiz, yəni 383 nəfər şagird ali məktəblərə qəbul olub.

2014-cü ildə 62 nəfər, 2015-ci ildə 80 nəfər 500-dən çox bal toplamışdır. Rayonun tarixində birinci dəfədir ki, ali məktəblərə qəbul imtahanında Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin məzunu Arzu Həsənli 700 bal toplamışdır.

Ümumiyyətlə Akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-lisey fəaliyyətə başladığı 2004-cü ildən rayon təhsilinə samballı töhfələr verib.

Ötən müddət ərzində məktəb-lisey 2 dəfə "İlin ən yaxşı məktəbi" müsabiqəsinin qalibi olmuş, məktəbin bir nəfər müəllimi "Tərəqqi" medalı ilə təltif olunmuş, iki nəfəri "Əməkdar müəllim" fəxri adına layiq görülmüş, 7 nəfər "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olmuşdur.

2004-cü ildə məktəbin ali məktəblərə qəbulu 6 nəfər olduğu halda, 2015-ci ildə 73 nəfər olmuşdur. Məktəb-liseyin artıq 2 ildir ki, hər il Prezident təqaüdünə layiq görülmüş məzunu olur. Ən fərəhli hal odur ki, məktəb-liseyin əvvəlki dərs ilində eyni sinifdə oxuyan 3 nəfər məzunu Prezident təqaüdünə layiq görülmüşdür. Məktəb-liseyin 98 məzunundan 83 nəfəri ali məktəbə qəbul üçün sənəd vermiş, 73 nəfər (88%-i) tələbə adını qazanmışdır. Onlardan 1 nəfəri 700, 14 nəfəri 600-dən, 4 nəfəri 500-dən çox bal toplamışdır.

Şəhər 3 nömrəli tam orta məktəbin 51 nəfər məzunundan 35 nəfəri ali məktəbə qəbul üçün sənəd vermiş, 22 nəfər (63 %-i) tələbə adını qazanmışdır. Şəhər 5 nömrəli tam orta məktəbin 34 nəfər məzunundan 16 nəfəri ali məktəbə qəbul üçün sənəd vermiş, 8 nəfər (50 %-i) tələbə adını qazanmışdır. Onlardan 1 nəfəri 600-dən çox bal toplayıb. İnklüziv tam orta məktəbin 42 nəfər məzunundan 31 nəfəri ali məktəblərə qəbul üçün sənəd vermiş, 19 nəfər (61%-i) tələbə adını qazanmışdır. Onlardan 2 nəfəri 600-dən, 4 nəfəri 500-dən çox bal toplamışdır. Xanqaraqoyunlu kənd tam orta məktəbin 32 nəfər məzunundan 14 nəfəri ali məktəbə sənəd vermiş, 6 nəfər (38 %-i) ali məktəblərə qəbul olmuş, onlardan 1 nəfəri 500-dən, 2 nəfəri 600-dən çox bal toplayaraq müəllimlərinə və valideynlərinə sevinc bəxş ediblər..

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə rayonun orta məktəblərində VIII-XI sinif şagirdlərinin iştirakı ilə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş inşa yazı müsabiqəsi keçirilmişdir. İnşa müsabiqəsinin yekun mərhələsində Gərənə kənd tam orta məktəbin XI sinif şagirdi Nərgiz Hüseynli qalib olaraq respublika mərhələsinə vəsiqə qazanmış və II yerə layiq görülmüş, qəbul imtahanlarında 556 bal toplayaraq BDU-nun hüquq fakültəsinə qəbul olmuşdur.

Müasir Azərbaycan tarixinin ümumtəhsil məktəblərində daha səmərəli öyrənilməsi məqsədi ilə Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş "ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu və memarıdır" və "Ümummilli lider Heydər Əliyevin ideyaları müasir Azərbaycanın sosial-iqtisadi inkişafının təminatçısıdır" mövzuları üzrə kurslar təşkil edilmiş, ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinə dərsdənkənar vaxtlarda zəngin məlumatlar verilmişdir.

Keyfiyyətin yüksəldilməsində yeni mərhələ olan 2014/2015-ci tədris ilində şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə də xüsusi diqqət yetirilmişdir. Belə ki, "Şahin" hərbi idman oyunlarında məktəblilərin iştirakı təmin olunmuş, X, XI siniflərdə oxuyan şagirdlərin hərbi xidmət həyatı, müasir döyüş silahları və texnika ilə tanışlıq, əsgər və zabit heyəti ilə görüşlərin keçirilməsi üçün "N" saylı hərbi hissə ilə dostluq telləri bağlanıb.

Təsadüfi deyil ki, bu il Milli Aviasiya Akademiyasına 3 nəfər, Azərbaycan Dövlət Dəniz Akademiyasına 3 nəfər, Naxçıvanski adına hərbi liseyə 4 nəfər, Ali Hərbi məktəbə 2 nəfər, Sərhəd Xidməti Akademiyasına 2 nəfər, Türkiyə Ali Hərbi məktəbinə 2 nəfər, Ali Hərbi Həkimliyə 1 nəfər, Daxili Qoşunlar Akademiyasına 1 nəfər, Polis Akademiyasına 1 nəfər, Milli Təhlükəsizlik Akademiyasına 1 nəfər qəbul olunub.

Müstəqilliyini bərpa etmiş Vətənimizin bu günü və gələcəyi şagirdlərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasından çox asılıdır. Odur ki, hər bir təhsil müəssisələrində gənclərə vətənpərvərlik tərbiyəsinin təşkili sahəsində əməli işlər görülür ki, bu da onlarda vətən təəssübü, vətənə sevgi hissi yaradır. Qarabağ uğrunda gedən döyüşlərdə rayonumuzun 300 nəfərdən artıq vətəndaşı şəhid olmuşdur ki, onlardan 50 nəfərinin adı əbədiləşdirilərək təhsil müəssisələrinə verilmişdir.

**Rzaqulu ŞƏRİFOV,**
**Bərdə Rayon Təhsil Şöbəsinin müdiri, respublikanın Əməkdar müəllimi.**